**Azərbaycan Tibb Universtetinin**

**İctimai Səhiyyə fakultəsinin**

**11.05.2023-ci il tarixli**

**Fakultə Elmi Şurasının iclasının**

# Q Ə R A R I

**Protokol № 7**

***İCTİMAİ SƏHİYYƏ FAKÜLTƏSİNİN ELMİ ŞURASI QƏRARA ALIR:***

I. Yoluxucu xəstəlikləri kafedrasının tədris hissə müdiri dos. V.N.Cavadzadənin kafedranın illik fəaliyyəti barədə hesabatı müsbət hesab edilsin.

II. İctimai Səhiyyə fakültəsinin 2022-2023-cü tədris ili VI kurs tələbələrinin Dövlət Attestasiyasının Obyektiv Strukturlaşdırılmış Praktik imtahanına hazırlığın vəziyyəti barədə məsul katib İ.İ Mustafayevanın hesabatı müsbət hesab edilsin.

II. Kafedra müdirlərinə tapşırılsın ki:

1. Yay imtahan sessiyasına hazırlıq işlərinə nəzarət gücləndirilsin;
2. İmtahan Mərkəzinə təqdim olunan testlərin tələblərə uyğun və lazımi sayda olmasına diqqət yetirilsin. Açıq testlərin tərtibatına ciddi nəzarət edilsin;
3. Testlər 15 may 2023-cü ilə qədər VTM-ə göndərilsin;
4. Semestrin sonunda ( 31 may 17.00-a qədər) ETS-də tələbələrin qiymətləndirilməsinin tam şəkildə və düzgün aparılmasına nəzarət edilsin. Səhvlərə görə məsuliyyəti müəllim və kafedra müdiri daşıyacaq ( töhmətə qədər) ;
5. İmtahana hazırlıqla əlaqədar kafedralarda tələbələr üçün məsləhət saatları təşkil edilsin və məsləhət saatlarının qrafiki dekanlığa təqdim edilsin;
6. Yay imtahan sessiyasına təyin olunan nəzarətçilərin fəaliyyəti diqqətdə saxlanılsın. Nəzarətçilərin İmtahan mərkəzi əməkdaşları və tələbələrlə davranışda etik qaydalara əməl etməsi tələb olunur. Sessiya müddətində nəzarətcilərin fəaliyyətindəki nöqsanlara kafedra müdirləri və ETM-in direktoru məsuliyyət daşıyır.
7. Müəllimlər tərəfindən dərs jurnallarının və fərdi iş plan-larının, eləcə də tədris yükü jurnallarının vaxtında yazılmasına nəzarət edilsin;

III. Elmi Şuranın qərarları kafedra iclaslarında 3 iş günü müddətində müzakirə olunaraq protokol dekanlığa təqdim olunsun.

IV. Dekanlığa tapşırılsın ki, Elmi Şurada verilən qərarların icrasına nəzarət edilsin.

Sədr: dos. Qalina Qəniyeva

Elmi katib: dos. Gülnarə İbrahimova